

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 195 (23.607)

*12 noyabr 2020-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşüblər. Dövlətimizin başçısı görüşdə çıxış edərək Vətən müharibəsində qazanılan parlaq qələbədən danışıb, bu münasibətlə qəhrəmancasına döyüşərək, düşmənin torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərərək yaralanan hərbçilərimizə təşəkkürünü bildirib.

Qeyd olunub ki, İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah sizə şəfa versin! Allah bütün yaralı əsgər və zabitlərimizə şəfa versin!

Ölkəmizin başçısı hərbçilərimizin, qəhrəmanlıq göstərmiş, yaralanmış hərbçilərimizin sağlamlığının bərpası, işlə təmin edilməsi üçün xüsusi addımlar atılacağını, şəhid ailələrinin problemlərinin öz həllini tapacağını vurğulayıb. Bildirib ki, bütün bu 44 gün ərzində, ondan əvvəl və ondan sonra döyüş meydanında, arxa cəbhədə qəhrəmanlıq göstərmiş hərbçilərimiz təltif ediləcək. Qəhrəman döyüşçülərimiz gələcək həyatda da dövlət başçısının daim nəzarəti altında olacaqlar. Prezident İlham Əliyev müalicə olunan hərbçilərimizi sonda bir daha təbrik edərək onlara tezliklə sağalmaq, adi həyata qayıtmaq arzu edib.



## E.M.Əliyevə "Əməkdar dövlət qulluqçusu" fəxri adının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Elşad Məmmədqulu oğlu Əliyevə **"Əməkdar dövlət qulluqçusu"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 11 noyabr 2020-ci il*

## Şərur rayonunun Qarabürc kəndi müasir yaşayış məntəqəsinə çevrilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Ulu öndər Heydər Əliyevin fəaliyyəti və siyasəti nəticəsində biz bugünkü Azərbaycanı, möhkəm təməl üzərində qurulmuş dövləti görürük. Bu gün dövlətimiz onun siyasəti əsasında uğurla inkişaf edir".***

Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsi Naxçıvan Muxtar Respublikasını davamlı inkişaf yoluna çıxarıb, yaşayış məntəqələri müasirliyə qovuşub. Kəndlərin inkişafına göstərilən qayğı, tikilən yeni sosial obyektlər əhalinin rahat yaşayışını və bölgələrin tarazlı inkişafını təmin edib. Rayon kimi yaranmasından 90 il ötən, muxtar respublikanın ən qədim və böyük yaşayış məntəqəsi olan Şərur müasir görkəmi ilə seçilir. Rayonun Qarabürc kəndində aparılan quruculuq işləri həyata keçirilən tədbirlərin davamıdır.

## Qarabürc kənd məktəbində müasir tədris şəraiti yaradılıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov noyabrın 11-də Qarabürc məktəbində olmuş, tədrisin vəziyyəti ilə maraqlanmışdır.

Bildirilmişdir ki, 120 şagird yerlik 3 mərtəbəli binada 14 sinif otağı, fizika və kimya-biologiya laboratoriyaları, şahmat sinfi, STEAM kabinəsi, kompüter, müəllimlər və psixoloq otaqları, kitabxana və idman zalı vardır. Məktəbdə 14 kompüter və 3 elektron lövhə quraşdırılmış, kompüter və elektron lövhələr internetə qoşulmuşdur. Məktəbin kitabxana fondu da zənginləşdirilmişdir. Burada 2159 kitab vardır.

Muxtar respublikada idman dərslərinin, xüsusilə də şahmatın tədrisinə ciddi diqqət yetirilir. Qarabürc kənd ümumi orta məktəbində də şahmat otağı, idman zalı və qurğuları istifadəyə verilmişdir. Məktəbdə ilk dəfə STEAM kabinəsi yaradılmışdır. Kabinədə vəsait hazırlanmışdır.



Ali Məclisin Sədri STEAM kabinəsində şagirdlərin əl işlərinə baxmış, STEAM metodları ilə bağlı xarici ədəbiyyatların Azərbaycan dilinə tərcümə olunması, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində də STEAM kabinəsinin yaradılması ilə bağlı tapşırıqlar vermişdir.

Elektron lövhəli sinifdə Naxçıvan şəhərindəki Bayraq Muzeyi ilə 200-dən artıq təhsil müəssisəsi arasında keçirilən interaktiv dərs izlənilmişdir.

Məktəbin müəllimi Nadir Ağayev yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir ki, əvvəllər məktəbimizdə bu cür şərait olmamışdır. Bu gün maddi-texniki bazası möhkəmləndirilən bir məktəbə sahibik. Çalışacağıq ki, işimizi yaradılan şəraitə uyğun quraq.

Sonra məktəbin pedaqoji kollektivi ilə görüş olmuşdur.







elektron lövhə, 2 kompüter, 3D printer quraşdırılmış, mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları qoyulmuşdur.

STEAM elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın birgə və inteqrasiya olunduğu tədris metodudur. Dünya təhsil sistemində STEAM tədris metodları mütəxəssis hazırlığının mühüm istiqaməti kimi götürülür. 2020-2021-ci tədris ilində pilot layihə olaraq muxtar respublikanın 13 məktəbində STEAM kabinələrinin, Heydər Əliyev adına tam orta məktəbdə müəllimlər üçün STEAM Tədris Mərkəzinin yaradılması, 6 və 7-ci siniflərdə Texnologiya fənni hesabına həftədə 1 saat STEAM dərslərinin tədrisi nəzərdə tutulur. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən müvafiq tədris proqramları və müəllimlər üçün metodik

Təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikada bütün sahələr kimi, təhsil də dövlət qayğısı ilə əhatə olunmuşdur. Bu ilin ötən dövründə 4 məktəb tikilərək və ya yenidən qurularaq

*Ardı 2-ci səhifədə*





istifadəyə verilmiş, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin müasir avadanlıqlarla təchiz edilmiş İmtahan Mərkəzi yaradılmış, Şərur rayonunda yerləşən məktəbdənkənar müəssisələrdə və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə innovativ dərnəklər fəaliyyətə başlamışdır. Hazırda Şərur rayonunda Şəhriyar, Ordubad rayonunda Ordubad şəhər 1 nömrəli və Nüsnüs kənd tam orta məktəbləri, Culfa rayon məktəbdənkənar tərbiyə müəssisələri və Culfa Rayon Təhsil Şöbəsi üçün binaların tikintisi və ya əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Ordubad və Culfa rayonlarında yerləşən məktəbdənkənar müəssisələrdə 30 innovativ dərnək yaradılır. Muxtar respublikada gənclərin hərtərəfli təhsil alması ilə yanaşı, vətənpərvər ruhda tərbiyə olunmasına da xüsusi diqqət yetirilir. Həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, Vətən müharibəsində əldə olunan qələbədə Ali Baş Komandanımızın da dediyi kimi Naxçıvanın igid gəncləri vətənpərvərliyi və şücaəti ilə seçilmişlər. Rəhman Məmmədov muxtar respublikanın təhsil işçiləri adından Ali Məclisin Sədrini qələbə münasibətilə təbrik etmiş, göstərilən hərtərəfli diqqət və qayğıya görə minnətdarlıq etmişdir.

Məktəbin müəllimi Lalə Quliyeva demişdir: “Muxtar respublikada təhsilə göstərilən diqqət və qayğıdan kəndimizdəki ümumi orta məktəbə də pay düşmüşdür. Bu gün həm Qarabürc kəndinin sakinləri, həm də məktəb kollektivi üçün çox qürurverici gündür. Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusunun xalqımıza bəxş etdiyi qələbəni yeni məktəbin



və digər sosial obyektlərin istifadəyə verilməsi ilə qeyd edirik. Məktəbimizdə gənc nəslin təlim-tərbiyəsi üçün hərtərəfli şərait yaradılmışdır. Bu da şagirdlərin daha yaxşı təhsil almalarına, vətənpərvər ruhda tərbiyə olunmalarına imkan verəcəkdir”. Lalə Quliyeva göstərilən hərtərəfli qayğıya görə müəllim və şagird kollektivi adından minnətdarlıq etmiş, savadlı və vətənpərvər gənclər yetişdirəcəklərinə söz vermişdir.

Ali Məclisin Sədri məktəb kollektivini təbrik edərək demişdir: Azərbaycan torpaqlarını işğaldan azad etmiş və qələbə qazanmışdır. Belə bir əlamətdar gündə Qarabürc kənd ümumi orta məktəbinin istifadəyə verilməsi ikiqat bayram sevinci yaşadır. Quruculuq işləri o vaxt həyata keçirilir ki, ölkədə sabitlik, iqtisadi inkişaf, xalq-dövlət birliyi, ən əsası isə güclü lider olsun. Bütün bunlar Azərbaycanda vardır. Ona görə də ölkəmizdə həm inkişaf təmin edilib, həm işğal altında olan torpaqlarımız geri qaytarılıb, həm də bu cür müasir məktəb binaları tikilib istifadəyə verilir.

Ali Məclisin Sədri demişdir: Pedaqoji kollektivin formalaşması, yaradılan şərait imkan verir ki, növbəti tədris ilində Qarabürc kənd ümumi orta məktəbi tam orta məktəbə çevrilsin. Bunun üçün lazımi tədbirlər görüləcək. Müəllimlərin üzərinə düşən vəzifə isə yaradılanlardan istifadə etməklə tədrisin səviyyəsini yüksəltmək, vətənpərvər gənclərin yetişdirilməsinə diqqəti artırmaqdır. Məktəbdəki əyani vəsaitlər imkan verəcəkdir ki, tədris şagirdlərə əzbərləməklə deyil, qavrama yolu ilə öyrədilsin. Ötən tədris ilində məktəbin 9-cu sinif bazasından iki şagirdin Heydər Əliyev adına Hərbi Liseyə və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul olunması məktəbin nailiyyətidir.

Ali Məclisin Sədri pedaqoji kollektivə təşəkkür etmiş, nailiyyətlərin daha da artacağına və yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmişdir.

Binanın həyətində bufet və fərdi qazanxana tikilmiş, açıq idman qurğuları quraşdırılmış, abadlıq işləri aparılmışdır.

## Qarabürc Kənd Mərkəzi fəaliyyətə başlayıb





Noyabrın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qarabürc Kənd Mərkəzində görülən işlərlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, Qarabürc Kənd Mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, bələdiyyə, baytarlıq məntəqəsi, polis sahə məntəqəsi, kitabxana, poçt bölməsi, klub və 38 yerlik zal yerləşir. Kitabxana fondunda 2 min 735 kitab vardır.

Ali Məclisin Sədri kitab müzakirələrinin təşkil olunması ilə bağlı tapşırıq vermişdir.

Binada poçt bölməsinin fəaliyyəti üçün bütün tədbirlər görülmüş, kənd Kürçülü kəndində yerləşən yeni nəsil ATS vasitəsilə telefonlaşdırılmışdır. Kənd sakinləri sürətli internetdən istifadə edirlər.

Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının 39 üzvü vardır ki, onlardan da 12-si gənc, 9-u isə qadındır.

Yeni Azərbaycan Partiyası Qarabürc kənd ərazi ilk təşkilatının sədri Səbuhi Əliyev Ali Məclisin Sədrini qələbə münasibətilə təbrik edərək demişdir: “Ölkəmizin sosial-iqtisadi inkişafını biz cəbhədə qazanılan uğurlarda gördük. Fəxr edirik ki, bu ölkənin



vətəndaşlarıyıq. Bu qələbə əzmi ilə də işləməyə, ölkəmizə bütün sahələrdə töhfə verməyə çalışacağıq”.

Bildirilmişdir ki, kənddə əsas diqqət yetirilən sahələrdən biri də baytarlıq xidmətidir. Xəstəliklərə qarşı vaxtında peyvəndlərin vurulması, dezinfeksiya işlərinin aparılmasının nəticəsidir ki, heyvanlar arasında heç bir yoluxucu xəstəlik yoxdur.

Kəndlərdə müasir səhiyyə müəssisələrinin tikilməsi mühüm əhəmiyyətə malikdir. Kənd mərkəzinin birinci mərtəbəsində yerləşən feldşer-mama məntəqəsində məntəqə müdiri, mama və manipulyasiya otaqları vardır. Məntəqə ginekoloji müayinə masası və alət dəsti, təcili yardım çantası, qlükometr, boyölçən, tərəzi, soyuducu və digər tibbi ləvazimatlarla təchiz edilmişdir.

Məntəqə müdiri Tahirə Quliyeva demişdir ki, muxtar respublikada səhiyyə sahəsinə göstərilən qayğıdan bizim kəndimizə də pay düşüb. Müasir tibbi avadanlıqlar imkan verəcək ki, insanların sağlamlığının keşiyində daha məsuliyyətlə dayanaq. Tahirə Quliyeva torpaqlarımızın işğaldan azad olunması münasibətilə təbriklərini çatdırmış, sağlam gənc nəslin yetişdirilməsinə göstərilən qayğıya görə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri səhiyyə maarifinin əhəmiyyətini vurğulamış və tibbi xidmətlərin təşkili ilə bağlı tapşırıqlar vermişdir.

Binada fərdi istilik sistemi quraşdırılmış, həyətdə abadlıq işləri aparılmışdır.

*Ardı 3-cü səhifədə*

# Xidmət mərkəzində 3 sakin işlə təmin olunub






Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidmət mərkəzində görülən işlərlə də tanış olmuşdur.

Məlumat verilmişdir ki, xidmət mərkəzində bərbərxana, ət satışı yeri və ərzaq malları mağazası yerləşir. Burada xidmət sahələrinin fəaliyyəti üçün nümunəvi şərait yaradılmış, 3 sakin işlə təmin olunmuşdur. Mağazada istehlakçıların gündəlik tələbatı nəzərə alınır, daha çox yerli kənd təsərrüfatı məhsullarının satışı həyata keçirilir.

Ali Məclisin Sədri xidmət mərkəzində ailə təsərrüfatlarında istehsal olunan məhsulların satışına üstünlük verilməsi ilə bağlı tapşırıq vermişdir.

Sonra sakinlərlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Xalqımızın qələbəni qeyd etdiyi gündə Qarabürc kəndi muxtar respublikanın müasir kəndləri sırasına daxil olur. Kəndin inkişafı onun yolundan başlanır. Kənd avtomobil yolunun yenidən qurulması, müasir iş şəraitinin yaradılması, məktəb, xidmət və kənd mərkəzləri kimi sosial obyektlərin qurulması sakinlərin rahat yaşamasına xidmət edəcəkdir. Qurulanların qorunması isə kənd sakinlərinin üzərinə düşən vəzifədir. Dünyada belə ölkələr çox azdır ki, həm torpaqlarının qorunması üçün ordu quruculuğuna vəsait ayırır, həm də ölkədə abadlıq-quruculuq tədbirləri həyata keçirir. Bütün bunları Qarabürc kəndinin simasında aydın görürük.

Ali Məclisin Sədri demişdir: Kənd sakinləri burada münbit torpaqlara sahibdirlər. Suvarma suyu ilə təmin olunublar, istehsal olunan məhsulların satışı üçün hər cür şərait yaradılıb. Buna görə də torpaqlar əkilməli, ölkəmizin inkişafına hər bir sakin töhfəsini verməlidir. Sevindirici haldır ki, yeni evlər tikilir, məskunlaşma artır. Dövlət tərəfindən də lazımi köməklik göstərilir. Bundan sonra ölkəmizin qarşısında duran əsas vəzifə işğaldan azad olunan torpaqlarımızda yenidənqurma işlərinin aparılması olacaqdır.

Ali Məclisin Sədri kənddə yeni sosial obyektlərin istifadəyə verilməsi münasibətilə sakinləri təbrik etmiş, işlərində uğurlar arzulamışdır.

Kənd sakinləri adından minnətdarlıq edən Arif Yusifov demişdir: "Muxtar respublika rəhbərinin kəndimizə gəlişi sakinlər tərəfindən böyük sevinc və fərəh hissi ilə qarşılanır. Mən bütün kənd sakinləri adından Ali Məclisin Sədrini İkinci Qarabağ müharibəsində əldə olunan qələbə münasibətilə təbrik edirəm. Ordu quruculuğuna muxtar respublikada göstərilən diqqət və qayğının nəticəsidir ki, Ali Baş Komandan cənab İlham Əliyevin də dediyi kimi naxçıvanlılar Vətən müharibəsində böyük qəhrəmanlıq və şücaət göstərmişlər. Biz bununla qürur duyuruq. Muxtar respublikada aparılan abadlıq-quruculuq işləri insanların rahat yaşayışının təminatıdır. Bu quruculuqdan kəndimizə də pay düşmüşdür. İstifadəyə verilən məktəb binası, feldşer-mama məntəqəsi, kənd və xidmət mərkəzləri və digər müasir infrastruktur kəndimizin simasını tamamilə dəyişməklə yanaşı, həm də sakinlərin rahatlığına xidmət edəcəkdir. Kəndimizin sakinləri çox zəhmətkeş, torpağa bağlı insanlardır. Suyumuz bol, torpaqlarımız məhsuldardır. İstehsal etdiyimiz məhsulları bazar və yarmarkalarda rahat satırıq. Bir sözlə, kəndin bütün sosial problemləri öz həllini tapmışdır. Heç bir çətinliyimiz yoxdur. Söz veririk ki, yaradılan şəraitdən bundan sonra da səmərəli istifadə edəcək, muxtar respublikanın inkişafına töhfə verəcəyik".

# Qarabürc kənd avtomobil yolu yenidən qurulub





Noyabrın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qarabürc kənd avtomobil yolunda aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.

Bildirilmişdir ki, 1,8 kilometrlik olan avtomobil yolu yenidən qurulmuş, asfalt örtük salınmışdır. Eyni zamanda 1,1 kilometr uzunluğundakı kənddaxili yollara qum-çınqıl qatı verilmişdir. Tikinti aparılarkən yolun üzərində 27 su keçidi qoyulmuş, 1056 metr uzunluğunda beton su kanalı çəkilmişdir.

* * *

Qarabürc kəndində abadlıq işləri də aparılmış, 2 min metr fiber-optik, 1500 metr yeraltı rabitə xətti çəkilmiş, 2 transformator quraşdırılmış, 3 min metr uzunluğunda yeni elektrik xətti çəkilmiş, 4 min metrlik elektrik xətti izolyasiyalı elektrik kabelləri ilə əvəz edilmişdir. Kənddə yeni tikililərə qaz xətti çəkilmiş, 1560 metr qaz xəttində təmir-bərpa işləri aparılmış, mövcud subartezian quyusundakı nasos yenilənmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycan Respublikasının Konstitusiyası dünyanın ən mütərəqqi konstitusiyalarından biridir

Hər il 12 noyabr – Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu gün ölkəmizdə qeyd olunur. Konstitusiyanın qəbulu Azərbaycanın müstəqilliyinin ilk illərində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri olmuş, ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu istiqamətində yeni mərhələnin əsasını qoymuşdur. Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması və qəbul edilməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin dönməz iradəsi, gərgin əməyi, dərin hüquq düşüncəsi və siyasi uzaqgörənliyi nəticəsində mümkün olmuşdur.

Böyük öndərimiz əmin idi ki, demokratik dəyərlərin üstünlüyünü qəbul edən, azadlığın, haqq və ədalətin bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün Konstitusiya birinci dərəcəli əhəmiyyət daşıyır. Siyasi, iqtisadi, hüquqi sistemin köklü şəkildə dəyişdiyi, cəmiyyətdə keçid dövrünün başlandığı bir vaxtda Konstitusiyanın – Əsas Qanunun rolu qatqat artır. Bu, bir həqiqətdir ki, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunması ilə Azərbaycanın tarixi inkişafının yeni bir mərhələsi başlandı.

Konstitusiya dövlət və xalq arasında ən mühüm ictimai münasibətləri tənzimləyən, konstitusion quruluşun, dövlət hakimiyyəti təşkilinin əsaslarını özündə əks etdirən ali qanundur. Azərbaycanın qanunvericilik sisteminin bünövrəsini təşkil edən, Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya ölkədə siyasi sabitliyin, milli sülhün və barışığın qarantı kimi çıxış edir, hüquqi-siyasi münasibətlər sisteminə və hüquq düşüncəsinə əhəmiyyətli təsir göstərir.

1995-ci ildə Konstitusiya Komissiyası yaradıldı. Komissiyanın ilk iclası 1995-ci il iyunun 5-də ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirildi. İclasda ölkənin təcrübəli və yüksək təhsilli hüquqşünasları, dövlət hakimiyyətinin hər üç qolundan olan nümayəndələr, ziyalılar, alimlər iştirak edirdilər. Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Konstitusiya Komissiyası tərəfindən hazırlanaraq ümumxalq müzakirəsinə çıxarılan Əsas Qanunun layihəsi 1995-ci il noyabrın 12-də keçirilən referendumda qəbul edildi. Böyük zəhmət tələb edən gərgin işdən sonra Əsas Qanunun baza müddəaları, daha sonra isə onun layihə mətni ictimai müzakirəyə çıxarıldı. Ümummilli lider Heydər Əliyev deyirdi: ***"Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə, Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir".***

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəd idi.

Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil edir. Konstitusiyada demokratik təsisatlar, hüquqi dövlətin atributları, hakimiyyət bölgüsü, insan hüquq və azadlıqları və onların təminatı kimi mütərəqqi müddəalar öz əksini tapmışdı. Dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq digər xalqlarla dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq kimi ülvi niyyətlərin bəyan edilməsi Konstitusiyamızın demokratik dəyərlərini əks etdirir. Konstitusiyamız özünün hüquqilik dəyərinə, demokratiklik əlamətlərinə görə dünyanın bir çox inkişaf etmiş dövlətlərinin konstitusiyaları ilə müqayisədə daha təkmil və əhatəlidir.

Hər bir demokratik ölkədə hakimiyyət yalnız xalqın iradəsi əsasında formalaşa bilər. Təsadüfi deyil ki, Konstitusiyamızın birinci maddəsi Azərbaycan xalqını dövlət hakimiyyətinin yeganə mənbəyi hesab edir. Əsas Qanunda sərbəst və müstəqil öz müqəddəratını həll etmək, öz idarəetmə formasını müəyyən etmək xalqın suveren hüququ kimi təsbit olunur. Konstitusiyamızın ikinci fəsli ilə Azərbaycan dövlətinin hüquqi

*Ardı 4-cü səhifədə*

statusu müəyyənləşdirilmiş, siyasi-hərbi, sosial-iqtisadi inkişafının əsas prinsipləri təsbit olunmuşdur. Dövlətin idarəetmə mexanizmi isə dünyanın demokratik cəhətdən inkişaf etmiş ölkələrində əsas meyar kimi götürülərək sınaqdan çıxmış hakimiyyətin səlahiyyətlər bölgüsü əsasında həyata keçirilməsi prinsipinə əsasən təşkil olunmuşdur.

Konstitusiya dövlətin hər hansı bir marağa deyil, məhz vətəndaşların mənafelərinə, şəxsiyyətin maraqlarına xidmət etdiyini ən yüksək səviyyədə bəyan edir. Bu baxımdan təsadüfi deyil ki, Konstitusiyanın ən geniş fəslində məhz əsas insan və vətəndaş hüquq və azadlıqları, bu hüquqların və azadlıqların təminatı, habelə ayrı-ayrı hüquq və azadlıqların qanuni məhdudlaşdırılmasının yol verilən hədləri ehtiva edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasının qəbulu nəticəsində qarşıya çıxan ən böyük vəzifələrdən biri yeni hüquq sisteminin formalaşması, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi olmuşdur. Bu sahədə atılmış ciddi addımlar nəticəsində ölkədə müasir tələblərə cavab verən üçpilləli məhkəmə sistemi bərqərar olmuşdur ki, bu da vətəndaşların qanuni maraq və mənafelərinin ədalət mühakiməsi yolu ilə birinci, apelyasiya və kassasiya instansiyası məhkəmələri tərəfindən daha etibarlı şəkildə müdafiə olunmasına geniş imkan yaratmışdır. Məhkəmə hakimiyyətinin ali orqanı sayılan, Konstitusiya nəzarətini həyata keçirən Konstitusiya Məhkəməsinin statusu da məhz ilk dəfə olaraq ali qanunumuzda müəyyən olunmuşdur.

Əsas Qanunumuzda Naxçıvan Muxtar Respublikasının konstitusion hüquqi statusuna həsr olunmuş xüsusi fəslin olması Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının qəbul edilməsi üçün əsas yaratmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının 8-ci fəslində əks olunmuş müddəalar əsas götürülərək Naxçıvan Muxtar Respublikası Konstitusiyasının layihəsi hazırlanıb 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisində Konstitusiya Qanunu kimi qəbul edildikdən sonra 8 yanvar 1999-cu ildə qüvvəyə minmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbul edilməsi Naxçıvan Muxtar Respublikasının statusunu, muxtariyyətinin əsaslarını, dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkilini, onların qarşılıqlı əlaqəsini müəyyənləşdirmişdir. Bu Konstitusiya ilə Naxçıvan Muxtar Respublikasında ilk dəfə Ali vəzifəli şəxs institutu təsis edilmişdir. Bu Konstitusiyanın qəbulu siyasi-hüquqi əhəmiyyətinə görə nəinki muxtar respublikada, bütövlükdə, ölkəmizdə mühüm əlamətdar hadisəyə çevrilmiş, beynəlxalq təcrübədə nümunəvi model kimi dövlət idarəetməsinin təşkilinin mükəmməl hüquqi bazasını yaratmışdır.

Qeyd edilməlidir ki, Əsas Qanunun qəbulu zamanı onun tənzimetmə predmetinə daxil olan ictimai münasibətlər və bu münasibətlərin tərkib hissəsi olan hüquqi, siyasi, sosial və iqtisadi vəziyyət dəyişdikcə, ictimai münasibətlər inkişaf etdikcə öz təbiətinə görə kifayət qədər sabit normativ-hüquqi akt olan Konstitusiyaya da bir daha nəzər salınması, onun müəyyən müddəalarının təkmilləşdirilməsi, mütərəqqi əlavələrin və dəyişikliklərin edilməsi zərurəti yaranır. Məhz bu cür zərurətdən irəli gələrək 2002-ci il 24 avqust, 2009-cu il 18 mart və 2016-cı il 26 sentyabr tarixlərində keçirilmiş referendumlar nəticəsində Konstitusiyaya bir sıra əhəmiyyətli əlavələr və dəyişikliklər edilmişdir.

*Azərbaycan Respublikasının Konstitusiyası möhkəm hüquqi bazaya malikdir və bu ali normativ sənəd hələ uzun müddət müstəqil dövlətimizin demokratik inkişaf hədəflərini müəyyənləşdirməyə, ərazi bütövlüyümüzü qorumağa, müstəqilliyimizi yaşatmağa qadir olacaq və Azərbaycan xalqına xidmət edəcəkdir.*

**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti**



# “Qarabağ” dastanı

***44 gün... Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 gün... Azərbaycanın döyünən ürəyinə, bir parçasına qovuşduğu, 30 illik bir həsrətin, nisgilin bitdiyi an... 10 noyabr 2020-ci il. “Qarabağ” dastanının yazıldığı gün. Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixində yazdığı yeni salnamə... Azərbaycan Sizinlə qürur duyur, Ali Baş Komandan! Siz Azərbaycanın 300 min illik sərkərdəsi, qəhrəmanı oldunuz. Səfəvilər dövlətindən sonra işğal edilən torpaqları azad edən ilk lider oldunuz. Tarix Sizin adınızı şanlı səhifələrinə yazdı. Sizinlə qürur duyuruq, Milli Ordumuz! İgid oğullarımız, mərd övladlarımız, siz bu qələbəni qanınızla, canınızla yazdınız tariximizin səhifələrinə.***

### *Ulu öndər, ruhun şad olsun*

Mən həmişə yazılarımda yazmışam, yenə də yazıram: yaxşı ataların yaxşı oğulları olur. Cənab İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin mənəvi və siyasi varisidir. Əsl azərbaycanlı, xalqını canından artıq sevən, vətənpərvər insan olan, həyatının sonunadək bu xalqın, bu millətin yolunda cəfa çəkən ulu öndərimizin. Elə buna görə də xalq Onu özünə ümummilli lider seçdi. Taleyini Ona tapşırdı. Müstəqilliyini Ona etibar etdi. Beləliklə də, müstəqilliyimiz təhlükədən, itirilməkdən xilas oldu. Torpaqlarımızın daha da geniş miqyasda itirilməsinin qarşısı alındı. Ölkəmiz dünyada tanındı, dünya dövlətləri ilə iqtisadi əlaqələr quruldu. 70 illik imperiya məngənəsindən qurtulan, bütün sahələrdə tənəzzülə uğrayan Azərbaycanda yeni bir Azərbaycan quruldu. Azərbaycan, bütövlükdə, ulu öndərimizin əsərinə çevrildi.



Çox təbii ki, belə bir liderin övladı da cənab İlham Əliyev olacaqdı. Dövlətçilik qabiliyyəti, idarəetmə bacarığı, siyasi-hərbi savadı ilə dünyanın həsəd apardığı lider cənab İlham Əliyev.

### *Müharibə, müsahibə, müraciət*

I Qarabağ müharibəsi nə zamansa II Qarabağ müharibəsinin olacağına şübhə yeri qoymamışdı. Xalq bir gün öz əzəli torpaqlarını geri alacaqdı. Həmin günün ulu öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirilməsini təsdiqlədi.

Ölkəmizdə 43 gün davam edən müharibənin 44-cü günü qələbə bəxş etdi millətimizə. Şiddətli döyüşlər getdi Qarabağ torpaqlarında. Şəhidlər verdik, ürəyimiz parçalandı, qazilərimiz oldu. Lakin bir-birinin ardınca torpaqlarımızı erməni nankorlarından geri aldıq. Füzulimiz, Zəngilanımız, Cəbrayılımız, Qubadlımız, Şuşamız erməni tapdağından xilas edildi, hürriyyətinə qovuşdu. Azərbaycan Milli Ordusu Ali Baş Komandanımızın rəhbərliyi ilə dünyanı heyrətə gətirən döyüş taktikası həyata keçirdi.

Cənab Prezidentimiz Azərbaycan tarixinə adı ilə bağlı bu sözləri yazdı: müharibə, müsahibə, müraciət. O, ordumuza Ali Baş Komandanlıq etməklə yanaşı, həm də dünyanın bizə qarşı yönəlmiş informasiya müharibəsinin qəhrəmanı oldu ötən 44 gününün hər anında. 44 gündə dünyanın ən məşhur kütləvi informasiya vasitələrinə 30-dan artıq müsahibə verən dövlətimizin başçısı Qarabağın tarixini, strateji əhəmiyyətini, əhalisinin vəziyyətini, 30 illik işğal dövrünü, həmçinin Qarabağla bağlı susan beynəlxalq təşkilatların mahiyyətini tarixi reallıqlarla dünyaya çatdırdı. Özünəməxsus nitqi, səbri, haqsız, ədalətsiz suallara hər dəfə eyni təmkinlə cavab verməsi, müxtəlif dillərdə sərbəst, qüsursuz danışıq qabiliyyəti ilə dünya siyasətçilərini və jurnalistlərini heyrətləndirən cənab İlham Əliyev bütün bunların fonunda Azərbaycanın necə bir dövlət olduğunu təsdiqləməklə yanaşı, ulu öndərin layiqli övladı olduğunu da sərgilədi. Xalqına dəfələrlə müraciət etməsi ölkəmizin rəhbərini xoş xəbər müjdəçisi etdi insanların gözündə. 44 gündə torpaqlarımızın azad edilməsi ilə bağlı xəbərləri tək Ali Baş Komandandan almağımız bizim bir yumruq olduğumuzun, bu dövlət başçısının ətrafında sıx birləşdiyimizin sübutu oldu. Azərbaycanda belə bir misal var: o yerdə ki ağsaqqal var, orada Allah var.

### *II Qarabağ müharibəsi təsdiqlədi*

Bu müharibə bir çox məqamları təsdiq etməklə yanaşı, həm də ona vəsilə oldu. Nəzər salaq:

– Ən birincisi, ata vəsiyyətini qeyd etmək istəyirəm. Cənab Prezidentimizin ulu öndərin ***“Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir”*** vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli məsələ olduğunu aşıladı. Bu, hər bir gəncə nümunə gücündə olan təsirli məqamdır.

– Ölkə Prezidentinin 17 illik fəaliyyəti dövründə hər il bütün bayramlarda xalqımıza müraciətlərində Qarabağdan söhbət açıb, onun bir gün geri qaytarılacağını əminliklə söylədiyinin şahidi olmuşuq. Eləcə də beynəlxalq təşkilatların kürsülərində, xarici qonaqlarla görüşlərində eyni fikirlər hər dəfə səslənib. Bütün bunlar isə Prezidentimizin ötən 17 ildə söylədiyi sözlərin arxasında həm də bu sözlər dəyərində ordu quruculuğu prosesini uğurla həyata keçirdiyini, Ali Baş Komandanımızın sözlə əməl vəhdətini təsdiqlədi.

– Cənab Prezidentimizdə Azərbaycançılıqdan irəli gələn bir xarakteri də açıqca gördük. O, hər kəs kimi müharibə istəmirdi, qan tökülməsini, övlad itkisini istəmirdi. Bunu dəfələrlə Ermənistan siyasi rəhbərinə müraciətində gördük. ***“Torpaqlarımızdan çıxın, müharibəni dayandıraq”***, – dedi. Ermənilər bu mənəvi dəyərin nə olduğunu bilməsələr də, bu təkliflər onlara dəfələrlə edildi.

– II Qarabağ müharibəsi cənab İlham Əliyevin sayəsində bizim özümüzü tanımağımıza vəsilə oldu. Biz gördük ki, azərbaycanlılar nə qədər həmrəy, bir yumruq kimi birləşə bilən, eyni zamanda çox vətənpərvər xalqdır. Vətəninə, bayrağına sevdalıdır.

– Müharibə xalqın rəhbərinə inamını da nümayiş etdirdi. Tərtərdə, Bərdədə, Gəncədə evləri dağıdılan yüzlərlə insan Prezidentə arxalandığını bildirdi. Onlar evlərinin dağılmasına, həyatlarının təhlükədə qalmasına baxmayaraq, yurdlarını tərk etmədilər, qələbə əzmi ilə yaşadılar. Bu, rəhbərə inam, Onun arxasında olmaq deməkdir. Onlar bir də buna əmin idilər ki, evləri, həyətləri əvvəlkindən də gözəl vəziyyətdə özlərinə qaytarılacaqdır. Çünki bu insanlar cənab Prezidentimizin verdiyi sözlərə əməl etdiyinin həmişə şahidi olublar.

– Qarabağ müharibəsi onu təsdiq etdi ki, xalq-dövlət birliyindən güclü qüvvə ola bilməz. Elə bu qüvvə də qələbəmizi təmin etdi.

– Və son olaraq Prezidentimizin illər öncə dediyi bu fikirlərini təsdiqlədi: ***“Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin”.***

### *Bu gün QƏLƏBƏ günüdür*

Bütün Azərbaycan 10 noyabr qələbəsini qeyd edir. Torpaqlarımızın yarıdan çoxu qanla, döyüşlə geri alınıb. Digər hissəsi isə Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin birgə bəyanatları ilə yaxın günlərdə geri qaytarılacaqdır. Hələ üstəlik Naxçıvana da ana Vətənlə əlaqəsi üçün yol veriləcəkdir. Gecə saatlarından hər kəs küçə, xiyabanlardadır. 30 illik nisgil bu qələbədə gülümsəyir. 30 illik hicran bu qələbədə vüsala qovuşur. 20 Yanvar, Xocalı, I, II Qarabağ müharibələrinin şəhidlərinin ruhları sevinir. Oğullarımızın qisası alınır. 30 ilədək köçkün, qaçqın həyatı yaşayanların bu qələbədə üzləri gülür. Ən əsası isə torpaqlarımızdan yad ayaqlar kəsilir. Torpaq da sevinir, doğma addımları gözləyir. Doğma nəfəsləri gözləyir...

### *“Qarabağ” dastanı*

Dastan xalqın qəhrəmanlığını təcəssüm etdirən ədəbi nümunədir. Dastanın müəllifi xalqdır, onu yaradan da, yazıya köçürən də, yaşadan da xalqdır. Ali Baş Komandanımız Qarabağ haqqında kitabların yazılacağının vacibliyini vurğulayıb. 1990-cı illərin I Qarabağ, 2020-ci ilin II Qarabağ müharibələrini, blokada Naxçıvanının acılarını yaşamış, gəncliyinə 20 Yanvar, Xocalı, işğal dağları çəkilmiş bir jurnalist kimi bu gün xoşbəxtəm ki, bu dastanı yazanlardan biri mənəm. Bu dastan qəhrəmanlıq dastanıdır, baş qəhrəmanı Ali Baş Komandanımız, ölkəmizin Prezidenti cənab İlham Əliyev və Azərbaycan xalqıdır. Bu dastanın artıq bir neçə boylarını yazmışam, yazacağam da. Qalır, Qarabağ, sənə gəlməyim. Bu dastan orada bitməlidir. O torpaqların ətrini ciyərlərimə çəkəndən, şəhid qanı axan torpağını öpəndən, qazilərimizlə söhbət edəndən, bir də anamın ata yurdu Laçına salam verəndən sonra bitəcək. Gözlə məni, Qarabağ, gələcəyəm sənə, çox yaxında gələcəyəm... Dastanını o sinəndə bitirəcəyəm... Qələbəmiz mübarək! Bayramımız mübarək!

**Mətanət MƏMMƏDOVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 10 noyabr 2020-ci il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 922 | 758 | 164 |
| 2. | Babək rayonu | 4652 | 3042 | 1610 |
| 3. | Ordubad rayonu | 331 | 56 | 275 |
| 4. | Culfa rayonu | 1526 | 1310 | 216 |
| 5. | Kəngərli rayonu | 3201 | 1741 | 1460 |
| 6. | Şahbuz rayonu | 268 | 250 | 18 |
| 7. | Sədərək rayonu | 476 | 180 | 296 |
| 8. | Naxçıvan şəhəri | 252 | 195 | 57 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **11628** | **7532** | **4096** |

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 847